

■ Rəsul MİRZƏ

## ADAM

Nə şair sözünə, nə söz iyinə
Nə də yazdığına aldanır adam.
Bir payız gecəsi özündən küsüb
Çıxıb getmişlərə dadanır adam
Mən hansı yollarla sənə gəlim bəs?
Sən bütün yolları çıxıb getmisən...
Dalınca uzanan yoxluğunu da
Qapımın ağzına taxıb getmisən
Bir elin dərdi var indi canımda
Amma bir adamlıq canım qalmayıb
Nəyim var sevmisən vaxtında, - mənim
indi sevilәsi halım qalmıyıb.
Həə, belə ay belə, gün belə keçir
Keçib gedənlərə aldanır adam.
Bir payız gecəsi hamıdan küsüb
Təzədən özünə dadanır adam

## VARMI

Bu dünyadan o tərəfdə
Ulduzlar varmı, ulduzlar?
Üç heca, yeddi hərfə
Uduzan varmı, uduzan?
Mən bütün ayrılıqlarla
həmyerliyəm, bilirsənmi?
Eyni şəhərdənik,
eyni küçədən
Görürsənmi?
Bu qəhəri islatmağa
Göz yaşı varmı, göz yaşı?
Bu əcəli aldatmağa
Baş daşı varmı, baş daşı?

## NƏYİN VAR

Bu günü də bitirdim,
Nə qaldı ki, sabaha?
Yaşamasam, görəsən
Batmaram ki, günaha?
Önümdə yol ayrıcı,
Quzu olum, qurd olum?!
Ya mən də bu vətəndə
Bir quruca ad olum..
Su olsam, içmə məni
Yol olsam, keçmə məni.
Mən də qəbrim boydayam
Ay adam, ölçmə məni..
Suda balığa suyun
Göydə quşa göyün var.
Bəs insançün, İlahi
Bu vətəndə nəyin var?!

## ÜMİD KİMİ

Axtarma özünü künc-bucağımda
Gəzmə ürəyimi labirint kimi.
Sənə yer qalmadı qol- budağımda
Asılıb ölәsən bir ümid kimi.
Bağışla, səni də sevib atmağa,
Ya da atılmağa gücüm qalmayıb.
Hərənin bir sirrin büküb qoymuşam
Sənə açılası içim qalmayıb.
Qoy özüm yükümü daşıyım daha,
Ağlayıb eləsəm kiritmə məni.
Vaxtım da qalmayıb sənin olmağa,
Tanrı deyilsənsə diriltmə məni.